# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 330** **Bakı şəhəri, 27 iyul 2018-ci il**

**"Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları", "Dövlət reyestr kitabı", "Qeyri-kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatı haqqında şəhadətnamə", "Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən çıxarışın forması və çıxarışda göstərilən məlumatların həcmi" və "Qeyri-kommersiya qurumlarının dövlət qeydiyyatına alınması barədə ərizənin forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları", "Dövlət reyestr kitabı", "Qeyri-kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatı haqqında şəhadətnamə", "Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən çıxarışın forması və çıxarışda göstərilən məlumatların həcmi" və "Qeyri-kommersiya qurumlarının dövlət qeydiyyatına alınması barədə ərizənin forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384, № 9, maddə 868, № 12, maddə 1228; 2006, № 10, maddə 902; 2008, № 9, maddə 853, № 12, maddə 1104; 2010, № 6, maddə 548, № 7, maddə 705; 2011, № 5, maddə 445, № 12, maddə 1248; 2012, № 4, maddə 391, № 5, maddə 491, № 11, maddə 1200; 2014, № 5, maddə 548, № 6, maddə 748, № 9, maddələr 1121, 1122; 2015, № 2, maddə 212; 2016, № 9, maddə 1581; 2017, № 6, maddə 1230, № 10, maddə 1879) aşağıdakı dəyişikliklər edilsin:

1. Adı aşağıdakı redaksiyada verilsin:

"Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nın, habelə hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması ilə bağlı sənədlərin təsdiq edilməsi haqqında".

2. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları", "Qeyri-kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatı haqqında şəhadətnamə", "Qeyri-kommersiya hüquqi şəxsinin adında edilmiş dəyişikliyin dövlət qeydiyyatı haqqında şəhadətnamə", "Xarici qeyri-kommersiya hüquqi şəxsinin nümayəndəliyinin dövlət qeydiyyatı haqqında şəhadətnamə", "Xarici qeyri-kommersiya hüquqi şəxsinin filialının dövlət qeydiyyatı haqqında şəhadətnamə", "Xarici qeyri-kommersiya hüquqi şəxsinin nümayəndəliyinin adında edilmiş dəyişikliyin dövlət qeydiyyatı haqqında şəhadətnamə", "Xarici qeyri-kommersiya hüquqi şəxsinin filialının adında edilmiş dəyişikliyin dövlət qeydiyyatı haqqında şəhadətnamə", "Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən çıxarışın forması və çıxarışda göstərilən məlumatların həcmi", "Qeyri-kommersiya qurumlarının dövlət qeydiyyatına alınması barədə ərizənin forması", "Kommersiya hüquqi şəxslərinin dövlət reyestr kitabı", "Xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinin dövlət reyestr kitabı", "Publik hüquqi şəxslərin dövlət reyestr kitabı", "Qeyri-kommersiya hüquqi şəxslərinin dövlət reyestr kitabı" və "Xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinin dövlət reyestr kitabı" təsdiq edilsin (əlavə olunur).".

3. Həmin qərarla təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları" üzrə:

3.1. 1.3.2-ci yarımbəndə "şəxslərinin" sözündən sonra ", xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinin" sözləri, "orqanlarının" sözündən sonra ", habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyinin" sözləri əlavə edilsin.";

3.2. 1.3.3-cü yarımbəndə "Komitəsi" sözündən sonra "və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsi" sözləri əlavə edilsin;

3.3. 2.4-cü bəndə "qeyri-kommersiya" sözlərindən sonra "qurum-larının" sözü əlavə edilsin və ikinci halda "hüquqi şəxslərin" sözləri "qurumların" sözü ilə əvəz edilsin;

3.4. 3.2.4-cü yarımbənd ləğv edilsin;

3.5. 4.2-ci bəndin birinci cümləsində "Dövlət reyestr kitabında" sözləri "qeyri-kommersiya qurumlarının dövlət reyestr kitablarında" sözləri ilə, ikinci cümləsində isə "Dövlət reyestr kitabı" sözləri "Qeyri-kommersiya qurumlarının dövlət reyestr kitabları" sözləri ilə əvəz edilsin;

3.6. 4.2-1-ci bəndin üçüncü və 4.6-1-ci bəndin birinci cümlələrində "Kommersiya hüquqi şəxslərinin dövlət reyestr kitabı"nın, "Publik hüquqi şəxslərin dövlət reyestr kitabı"nın" sözləri "Kommersiya qurumlarının və publik hüquqi şəxslərin dövlət reyestr kitablarının" sözləri ilə əvəz edilsin;

3.7. 4.3-cü bənddə "Dövlət reyestr kitabı" sözləri "dövlət reyestr kitabları" sözləri ilə əvəz edilsin;

3.8. 4.5-ci bəndin birinci cümləsində "kitabı" sözü "kitabları" sözü ilə, "bölmədən" sözü "hissədən" sözü ilə, "bölmə" sözü hər iki halda "hissə" sözü ilə, ikinci cümləsində isə "Filial və nümayəndəliklərin Dövlət reyestr kitabında" sözləri "Xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinin dövlət reyestr kitablarında" sözləri ilə əvəz edilsin;

3.9. 4.6-cı, 4.7-ci (birinci halda) və 4.9-cu bəndlərdə və 4.10-cu bəndin birinci abzasında "kitabının" sözü "kitablarının" sözü ilə əvəz edilsin;

3.10. 4.8-ci bəndin birinci cümləsində "Dövlət reyestr kitabında" sözləri "dövlət reyestr kitablarında" sözləri ilə əvəz edilsin;

3.11. 4.8-1-ci bənddə "Kommersiya hüquqi şəxslərinin dövlət reyestr kitabı"nda, "Publik hüquqi şəxslərin dövlət reyestr kitabı"nda" sözləri "Kommersiya qurumlarının və publik hüquqi şəxslərin dövlət reyestr kitablarında" sözləri ilə əvəz edilsin;

3.12. 4.12-ci bəndin birinci cümləsində "kitabına" sözü "kitablarına" sözü ilə, hər iki halda "bölməyə" sözü "hissəyə" sözü ilə əvəz edilsin;

3.13. 4.13-cü bəndin ikinci cümləsində "Qeyri-kommersiya qurumlarının dövlət reyestr kitabı"nın" sözləri "Qeyri-kommersiya qurumlarının dövlət reyestr kitablarının" sözləri ilə, üçüncü cümləsində "hüquqi şəxslərinin" sözləri "qurumlarının və" sözləri ilə əvəz edilsin;

3.14. 4.15.2-ci, 5.2.3-cü yarımbəndlərdə və 5.3-cü, 5.5-ci bəndlərin birinci cümlələrində "hüquqi şəxslərinin" sözləri "qurumlarının" sözü ilə əvəz edilsin;

3.15. 5.3-1-ci bəndin birinci cümləsində "hüquqi şəxslərinə" sözləri "qurumlarına və" sözləri ilə əvəz edilsin;

3.16. 6.7-ci bəndə və 6.8-ci bəndin birinci cümləsinə "qurumları" sözündən sonra "(habelə dini qurumlar)" sözləri, "Azərbaycan Respublikasının Vergilər Nazirliyinə" sözlərindən sonra ", Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə" sözləri əlavə edilsin;

3.17. 6.8-1-ci bənd üzrə;

3.17.1. birinci abzasda "Kommersiya hüquqi şəxsinin, publik hüquqi şəxsin habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filiallarının" sözləri "Kommersiya qurumlarının və publik hüquqi şəxslərin" sözləri ilə əvəz edilsin;

3.17.2. ikinci abzasda "kommersiya hüquqi şəxslərinin, publik hüquqi şəxslərin habelə xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və filialları" sözləri "və dövlət reyestrinə daxil etdiyi kommersiya qurumları və publik hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

3.17.3. üçüncü abzasda "kommersiya hüquqi şəxsinin, habelə xarici kommersiya hüquqi şəxsinin publik hüquqi şəxsin nümayəndəlik və ya filialı" sözləri "kommersiya qurumları və publik hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

3.18. 8.6-cı bəndin birinci cümləsinə "başqa" sözündən əvvəl "əvvəllər" sözü əlavə edilsin və həmin bənddə ismin müvafiq hallarında "Dövlət reyestri" kitabı" sözləri ismin müvafiq hallarında "dövlət reyestr kitabları" sözləri ilə əvəz edilsin;

3.19. həmin qərarla təsdiq edilmiş "Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən çıxarışın forması və çıxarışda göstərilən məlumatların həcmi"nin 4-cü hissəsində "və 3.2.4-cü yarımbəndlərində" sözləri "yarımbəndində" sözü ilə əvəz edilsin;

3.20. həmin qərarla təsdiq edilmiş əlavələr - "Kommersiya hüquqi şəxslərinin dövlət reyestri", "Xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinin dövlət reyestri" və "Publik hüquqi şəxslərin dövlət reyestri"nin adlarında "reyestri" sözü "reyestr kitabı" sözləri ilə əvəz edilsin;

3.21. həmin qərarla təsdiq edilmiş əlavələr - "Qeyri-kommersiya hüquqi şəxslərin dövlət reyestri" və "Qeyri-kommersiya qurumlarının dövlət reyestrinin xarici qeyri-kommersiya hüquqi şəxslərinin nümayəndəlik və filialları bölməsi" əlavələri yeni redaksiyada verilsin (əlavə olunur).

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***